# AZƏRBACAN RESPUPLİKASININ
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/36** **12 dekabr 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasında 2018-ci ildə fəaliyyət göstərəcək "Dəyirmi masa" üzvlərinin təyin edilməsi haqqında**

Auditin aktual problemlərinin geniş müzakirəsinin təşkili və Azərbaycanda auditor xidməti qarşısında duran mövcud problemlərin həlli yollarının araşdırılması, qabaqcıl təcrübənin və innovativ metodların milli auditdə tətbiqinin genişləndirilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatasında 2018-ci ildə fəaliyyət göstərəcək "Dəyirmi masa" üzvlərinin yeni siyahısı təsdiq edilsin (əlavə olunur).
2. "Dəyirmi masa"nın rəhbəri Auditorlar Palatasının Aparatının rəhbəri Q.Bayramov, müavinləri Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov, katibi isə Kadr hazırlığı şöbəsinin müdiri E.Behbudova təyin edilsinlər.
3. "Dəyirmi masa"nın rəhbərliyinə tapşırılsın ki, iki həftə müddətində 2018-ci ildə "Dəyirmi masa"da müzakirəsi məqsədəuyğun hesab edilən məsələlərin siyahısını "Dəyirmi masa" üzvlərinin təklif və tövsiyələri nəzərə alınmaqla hazırlayıb təqdim etsinlər.
4. Auditorlar Palatası sədrinin 2017-ci il 6 mart tarixli 1/15 nömrəli "Auditorlar Palatasında "Dəyirmi masa"nın təşkil edilməsi və fəaliyyəti barədə" Sərəncamı qüvvədən düşmüş hesab olunsun.
5. Bu sərəncamın mətninin və "Dəyirmi masa" üzvlərinin siyahısının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**